# Həftəlik *Bülleten*

**093**

**23 May 2025**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Zahid Oruc: "Tikintidəki problemlərin həlli üçün vahid qiymətləndirmə meyarlarına ehtiyac var".**

Azərbaycanda tikinti sektorunda yaranan problemlərin məhkəmə sisteminə yönəlmədən həll olunması üçün vahid qiymətləndirmə meyarlarına ehtiyac var. Bunu Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, 90-dan çox şirkət və qurum var ki, vətəndaşlar onların mənzil və torpaq sahələrinin dəyərinin müxtəlif meyarlarla ödənildiyini bildirirlər: "Amma ortaq bir qiymət tarifi yoxdur. Bu isə narazılıqlara səbəb olur. Bəzən isə özəlləşdirilməmiş və ya icazəsiz tikilmiş konstruksiyalar üçün vətəndaşlar yüksək kompensasiya tələb edirlər". O qeyd edib ki, Azərbaycanda 208 milyon kvadratmetrdən çox mənzil fondu mövcuddur ki, onun da böyük hissəsi özəl sektora məxsusdur: "Bakıda yenilənməli olan ərazilərin sayı çoxdur və bu, digər sahələrə də təsir göstərir. Tikinti sektoru təkcə 150 minə yaxın insanı işlə təmin etmir, həm də mebel, xidmət, rəqəmsal texnologiyalar kimi sahələri hərəkətə gətirir". Z. Oruc vurğulayıb ki, mənzil qiymətlərinə təsir edən amillərdən biri kimi bank kreditlərinin faiz dərəcəsidir: "Kredit resurslarının dəyəri, onların faiz göstəriciləri birbaşa olaraq mənzil bazarına təsir edir. Bu da qiymətlərin artımında mühüm rol oynayır".



## Qarabağdakı təbii yataqlar tikinti materialları üçün yararlıdırmı?

İşğaldan azad olunmuş ərazilər tikinti xammalı materialları çay daşı, mərmər daş, mərmər mişar daşı, sement xammalı və digər təbii sərvətlərlə zəngindir. Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Geoloji ekspertiza şöbəsinin müdiri Ramilə Nəzərova bildirib ki, Qarabağ və Şərqi Zəngəzur bölgəsində inşaat materiallarına yararlı faydalı qazıntı yataqları mövcuddur: "Bunlar əsasən, əlvan metallar, mişar daşı, üzlük daşı, qırma daş, qum-çınqıl, gil və qum kimi mineral resurslardır". Şöbə müdiri bildirib ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən iri həcmli bərpa və quruculuq işlərində inşaat materiallarına yararlı faydalı qazıntılardan istifadə edilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov isə qeyd edib ki, azad edilən torpaqlarımız tikinti xammalı materialları çay daşı, mərmər daşı mərmər mişar daşı, sement xammalı və digər təbii sərvətlərlə zəngindir: "Bildiyimiz kimi, işğal dövründə orada bir sıra mədənlər illər boyunca ermənilər tərəfindən istifadə olunaraq ekoloji cinayət törədilmişdir. Həmin cinayətlərin sübutu olaraq o mədənlərdən istifadə edilməyəcək. Digər mədənlərdə fəaliyyət göstərmək isə sərbəstdir. İndi də həmin mədənlərdən Qarabağda aparılan tikinti işləri üçün istifadə edilir".



**Azərbaycan Özbəkistana divar kağızlarının ixracına başlayıb**

İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki Ağdam Sənaye Parkının rezidentlərindən biri Özbəkistana divar kağızlarının ixracına başlayıb.

Bu ölkəyə ilkin mərhələdə 1,36 milyon manatlıq məhsul göndərilməsi nəzərdə tutulub.

Divar kağızları Ağdam Sənaye Parkının 1,6 hektar ərazisində istehsal edilir. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. Müəssisə il ərzində 2,1 milyon ədəd rulon divar kağızı istehsal etmək gücündədir.



**Azərbaycanda "İstehsalat binaları. Layihələndirmə normaları" təsdiqlənib.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyası "İstehsalat binaları. Layihələndirmə normaları"nı təsdiq edib. Bununla bağlı Kollegiyanın sədri Anar Quliyev yeni qərar imzalayıb. Qərara əsasən, binanın həcm-planlaşdırma və konsruktiv həlləri insanların mütəhərrik qurğulardan, texnoloji və mühəndis avadanlığından istifadə prosesində zədələnmə hallarını istisna edilməli, eləcə də inşaat konstruksiyaları mümkün təhlükəli təsirlər nəzərə alınmaqla uzunömürlü və etibarlı olmalıdır. Bundan başqa, yerləşgələrdə döşəmə örtüyündən tavanın çıxıntı konstruksiyasının aşağı hissəsinə kimi hündürlük 2,2 m-dən, insanların müntəzəm olaraq keçdiyi yerlərdə və təxliyə yollarında döşəmədən kommunikasiya və avadanlıqların çıxıntı hissələrinin aşağısına kimi hündürlük 2 m-dən və insanların qeyri-müntəzəm olaraq keçdiyi yerlərdə isə 1,8 m-dən az olmamalıdır. Binaya avtomobillərin daxil olmasına zərurət olduqda konstruksiyanın, kommunikasiya və avadanlıqların çıxıntı hissələrinin aşağısına kimi keçidin hündürlüyü 4,2 m-dən, yanğınsöndürən avtomobillər üçün isə 4,5 m-dən az olmamalıdır. Həmçinin yerin planlaşdırma səviyyəsindən, yuxarı mərtəbənin döşəməsinin (texniki mərtəbə istisna olmaqla) səviyyəsinə qədər hündürlüyü 15 m-dən artıq olan və 15 m-dən artıq səviyyə fərqində növbədə 3 dəfədən artıq xidmət olunması zərurəti olan daimi iş yerləri və ya avadanlıqlar mövcud olan çoxmərtəbəli binalarda sərnişin liftləri nəzərdə tutulmalıdır.



**Azərbaycanda təhlükə potensiallı obyektlərin siyahısı təsdiq edilib.**

“Təhlükə potensiallı obyektlərin Siyahısı” təsdiq edilib.

Bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Bu sənəd əhali, habelə ətraf mühit üçün təhlükə yaradan maddələrin əldə olunması, hazırlanması, emalı, daşınması, istifadə edilməsi və ləğvi ilə məşğul olan, həmçinin radioaktiv və ionlaşdırıcı şüa mənbələrinə, partlayış və digər qəza təhlükəli tikililərə, qurğulara və avadanlıqlara malik istehsal, təchizat, nəqliyyat və sosial təyinatlı obyektləri müəyyən edəcək.

Təhlükə potensiallı obyektlərin siyahısı ilə aşağıdakı linkə daxil olaraq tanış olmaq mümkündür.

https://nk.gov.az/az/senedler/qerarlar/tehluke-potensialli-obyektlerin-siyahisinin-tesdiq-8838



**Bakıda yerli şirkətlərin 6-cı tanıtım sərgisi keçiriləcək.**

İyunun 18-21-də Bakı Ekspo Mərkəzində 6-cı dəfə "Yerli şirkətlərin tanıtım sərgisi" keçiriləcək. İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) istinadən xəbər verir ki, sərgidə qida, İKT, təhsil, inşaat, sənaye, kənd təsərrüfatı, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 300-ə yaxın yerli şirkət öz məhsul və xidmətlərini nümayiş edəcək. Bu, sərginin keçirildiyi illər ərzində ən çox sayda yerli şirkətin bir araya gəldiyi tədbir olacaq. Sərginin məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş kütləyə tanıtmaq, onlar üçün yeni bazarlar açmaq və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir. Ziyarətçilər sərgidə müxtəlif sektorlarda fəaliyyət göstərən şirkətlərin yeni məhsul və xidmətləri ilə ilk dəfə tanış ola biləcəklər. Nüfuzlu şirkətlərin təchizat zəncirində iştirak imkanlarının genişləndirilməsi və yeni əməkdaşlıqların qurulması üçün bu il sərgi çərçivəsində mikro və kiçik sahibkarların iri şirkətlərin rəhbərləri ilə görüşləri təşkil olunacaq. Builki sərginin tərəfdaşları Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi, Dövlət Reklam Agentliyi və "İş Adamları Cəmiyyətinin Milli Assosiasiyası" (İCMA) İctimai Birliyidir.



**ATMİA-nın növbəti işgüzar səhər yeməyi tədbiri baş tutdu.**

Bu gün ATMİA üzv şirkət rəhbərləri işgüzar səhər yeməyi süfrəsi arxasında bir araya gəldilər. Görüş zamanı iştirakçılara ATMİA-nın keçiriləcək tədbirlər barədə ətraflı məlumatlar verildi, üzvlərin təklifləri qeydə alındı, həmçinin, ATMİA-nın tam hüquqlu üzv sertifikatları bir neçə şirkət rəhbərlərinə təqdim edildi. Tədbirin sonunda iştirakçılar xatirə şəkil çəkdirdilər. İştirak edən sahibkarlara təşəkkür edirik və bildirirk ki, yeni tanışlıqlar, biznes əlaqələri qurmaq imkanlarını qazandıran bu cür görüşlər davamlı olaraq keçiriləcək.
ATMİA: 050 265 36 34



**Hörmətli ATMİA üzvləri!**

27.05.2025-ci il, saat 15.00-da Bakı KOB Evində ATMİA-nın Azərbaycan Nəqliyyat Ekspeditor şirkətləri Assosiasiyası (ANEŞA) ilə birgə “Yük daşımalarda risklərin aradan qaldırılması” dəyirmi masa tədbiri keçiriləcək. ANEŞA sədri və nəqliyyat üzrə ekspertlərin iştirakı ilə keçiriləcək dəyirmi masada yüklərin problemsiz keçidinə aid müzakirələr aparılacaq, bu sahədə üzvlərimizin mövcud problemlərin həlli yollarına aid faydalı məlumatlar veriləcək. Yerlər məhdud olduğu üçün ilk qeydiyyatdan keçənlər tədbirdə iştirak edə biləcək.
Tədbir üçün qeydiyyat: 050 250 36 34.

anons

# ANONS

**Hörmətli ATMİA üzvləri!**

ATMİA-nın "Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ rəhbərliyi və səlahiyyətli nümayəndələrin iştirakı ilə "tikinti materiallarının standartları" mövzusunda görüşün keçirilməsi planlaşdırılır. Tədbirdə iştirak etmək istəyən sahibkarlar 010 250 03 24 nömrəsi ilə əlaqə saxlayaraq qeydiyyatdan keçə bilərlər.

ATMİA

info@atmia.az www.atmia.az

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BUILDEX CHINA 2025**
**Tarixlər: 03-05 iyun 2025-ci il,**
**Məkan: Milli Sərgi və Konqres Mərkəzi, Şanxay (Çin)**
Çin Bina Su Təchizatı və Drenaj Sənayesinin Ən Böyük Biznes Platforması

**Sərginin adı: DOOR-TEC 2025**
**Tarixlər: 03 - 05 iyun 2025-ci il,**
**Məkan: Varşava (Polşa) Ptak Varşava Sərgisi**
Polşada və bütün Mərkəzi və Şərqi Avropa regionunda Qapı Sənayesinin Texnologiyaları və Məhsulları üzrə Beynəlxalq Ticarət Sərgisi

**Sərginin adı: GREEN BUSINESS WEEK 2025**
**Tarixlər: 03-05 iyun 2025-ci il,**
**Məkan: Lissabon Beynəlxalq Sərgisi, Lissabon (Portuqaliya)**
"Portuqaliyanın Ağıllı Şəhərlər Sammiti" çərçivəsində Su, Enerji, Tullantılar və Ətraf Mühit Sərgisi.

**Sərginin adı: STEEL STRUCTURES 2025**
**Tarixlər: 03-05 iyun 2025-ci il,**
**Məkan: Expocentr' Krasnaya Presnya yarmarkaları, Moskva (Rusiya)**
Steel Structures polad məhsulları istehsalçılarını, təchizatçılarını və son istifadəçilərini bir araya gətirəcək. Polad konstruksiyalar istehsalçıları və polad xidmət mərkəzləri tikinti sənayesi üçün ən son həllərini nümayiş etdirəcəklər

**Xaçmazın abadlaşması üçün 1,5 milyon manatlıq - TENDER KEÇİRİLİR**

Xaçmaz Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda 2025-ci ildə Xaçmaz rayonunda görüləcək abadlıq işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Şamama Məmmədova, Xaçmaz Rayon İcra Hakimiyyəti başçısı aparatında baş mühasib
Email : mail@xachmaz-ih.gov.az
Əlaqə telefonnu: +994 23 325 38 39



**Dövlət qurumu 3 ədəd subartezian quyusu tikəcək şirkətə - 227 MİN ÖDƏYƏCƏK**

Qarabağ Dirçəliş Fondu açıq tender elan edir.
Elanda 3 ədəd subartezian quyusunun tikinti işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Şahin İmanlı, Katiblik və Ümumi işlər şöbəsinin baş mütəxəssisi
Email : s.imanli@qdf.gov.az
Əlaqə telefonnu: +994 12 535 29 47 (134)



**Şəmkirin abadlaşması üçün milyon manatlıq - TENDER KEÇİRİLİR**

Şəmkir Rayonu İcra Hakimiyyəti Başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi açıq tender elan edir.
Elanda Şəmkir şəhərində abadlıq işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ramil Yusibov, Baş mühasib
Email : shehersoveti.shamkir@mail.ru
Əlaqə telefonnu: 022-305 3431



**Ağdamda binaların tikintisi ilə bağlı 9 milyonluq - TENDER ELAN EDİLDİ.**

Ağdam, Füzuli və Xocavənd Rayonlarında Bərpa,Tikinti və İdarəetmə Xidməti açıq tender elan edir.
Elanda "Ağdam şəhəri 5-ci yaşayış massivi, məhəllə O-130 üzrə binaların tikintisi işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Emil Quliyev, Baş məsləhətçi
Email : emil.guliyev@afxbti.gov.az
Əlaqə telefonnu: +994 50 640 00 04



**AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ TENDER ELAN EDİR**

Azərbaycan Turizm Və Menecment Universiteti açıq tender elan edir. Elanda əsas tədris binasının cari təmir işlərinin satınalması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hikmət Quliyev, Satınalma üzrə mütəxəssis
Email : h.quliyev@atmu.edu.az
Əlaqə telefonnu: +994 12 564 42 33



**ŞƏMKİR RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ ŞƏMKİR ŞƏHƏR İNZİBATİ ƏRAZİ DAİRƏSİ ÜZRƏ NÜMAYƏNDƏLİYİ TENDER ELAN EDİR.**

Şəmkir Rayonu İcra Hakimiyyəti Başçisinin Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyi açıq tender elan edir.
Elanda Şəmkir şəhərində avtomobil yollarının təmiri işləri ilə əlaqədar layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ramil Yusibov, Baş mühasib
Email: shehersoveti.shamkir@mail.ru
Əlaqə telefonu: +994 22 305 34 31





**www.atmia.az**